| | |
|---|---|
| İbrahim Məmmədhüseyn oğlu İbrahimov |  |

İbrahim Məmmədhüseyn oğlu İbrahimov 22 iyul 1946-cı ildə Bakı şəhərində anadan olub. 1965-1970-ci illərdə Azərbaycan Politexnik institutunda təhsil alıb. 1970-1979 “Azərdövlətlayihə” Dövlət Baş Layihə İnstitutunda qrup rəhbəri, baş memar çalışıb. 1979-cu ildən etibarən “Azərkurortlayihə” institutunda baş mühəndis, ardınca şöbə müdiri və hal-hazırda direktor vəzifəsində işləyir. 2006- cı ildən Azərbaycan Memarlıq və İnşaat Universitetində “Memarlıq layihələndirilməsi və Şəhərsalma” kafedrasının dosentidir. İbrahim İbrahimov 70-dən çox layihənin müəllifidir. 1975-ci ildən Azərbaycan Respublikası Memarlar İttifaqının üzvüdür.

İbrahim İbrahimov 1989-cu ildə Yalama-Nabran kurort zonasında ümumittifaq əhəmiyyətli 5000 nəfərlik turist və sanatoriya komplekslərinin layihələndirilməsi üzrə müsabiqənin laureatı, 1993-cü il “20 yanvar şəhidləri“ abidəsinə həsr olunmuş müsabiqəsinin diplomantı olub. O, “Ustad memar” sertifikatı (2013), Azərbaycanın Əməkdar memarı (2016), Azərbaycan Respublikası Memarlar İttifaqı tərəfindən “Çoxillik yaradıcılıq fəaliyyətinə görə Fəxri Fərman”la (2016) təltif olunub. 2019-cu ildən Beynəlxalq Memarlıq Akademiyasının Moskva bölməsinin professorudur.